# ƏTRAF MÜHİT ÜZRƏ

## QLOBAL SİYASƏT



# MƏZMUN

Qlobal pivə və içki şirkəti olan Carlsberg Group üçün ekoloji dayanıqlılıq son dərəcə vacibdir. Bizim xammal və inqrediyentlərimizin böyük hissəsi birbaşa təbiətdən əldə edilir və biznesimizin davamlı uğuru birbaşa ətraf mühitin sağlamlığı ilə bağlıdır. Buna görə də biz daim fəaliyyət göstərdiyimiz ətraf mühitə və cəmiyyətə təsirimizi azaltmaq üçün yollar axtarırıq.

Carslberg Group ekosistemlərin təqdim etdiyi xidmətlərin və onların əsasını təşkil edən biomüxtəlifliyin başa düşülməsi, qorunması və genişləndirilməsində oynadığımız mühüm rolu qiymətləndirir. Buna görə də biz davamlı olaraq təbii resursların istifadəsini optimallaşdırmağa, məhsul və fəaliyyətimizi həyat dövrü baxımından nəzərdən keçirməyə, eləcə də məhsullar, materiallar və texnologiyaları uzunmüddətli dayanıqlı inkişafa töhfə verəcək şəkildə inkişaf etdirməyə və istifadə etməyə çalışırıq.

Bizim dayanıqlılıq proqramımız materialların tədarükündən başlayaraq qablaşdırma, istehsal, paylanma, satış və bazara çıxarılma mərhələlərindən keçərək məhsulların istehlakına qədər dəyər zənciri boyu fəaliyyətimizin təsirlərinin qarşısını alan ambisiyalı hədəflər qoymaqla dayanıqlı inkişafa olan bağlılığımızı aydın şəkildə vurğulayır.

# BU SİYASƏT KİMLƏR ÜÇÜN NƏZƏRDƏ TUTULUB?

Bu siyasət dünya üzrə Carlsberg Group-un bütün müəssisələrinin rəhbərliyinə, işçilərinə və podratçılarına tətbiq edilir. Bu Siyasət həmçinin ziyarətçilərə və Group-un işçiləri və ya agentləri xarici məkanlarda işləyərkən də tətbiq edilir. Biz təchizatçılarımızdan və tərəfdaşlarımızdan bütün müvafiq ekoloji qaydalara riayət etmələrini və ətraf mühit üzrə fəaliyyətlərinin, idarəetmə proseslərinin və təsirlərinin bizim hədəflərimizə uyğun olduğunu göstərməklərini tələb edirik.

# BU SİYASƏTİN ƏSAS PRİNSİPLƏRİ

Carlsberg Group ətraf mühitin dayanıqlılığının onun işinin uzun müddətli uğuru üçün vacib olduğunu qəbul edir, çünki onların işi təbii resurslardan ciddi dərəcədə asılıdır. Şirkət resurslardan istifadəsini optimallaşdırmaq, biomüxtəlifliyi qorumaq, eləcə də əməliyyatlarına və məhsullarına həyat dövrünə əsaslanan yanaşma tətbiq etməklə ətraf mühitə təsirini minimuma endirməyə çalışır. Carlsberg Ətraf mühit, Sosial və İdarəetmə (ESG-Environmental, Social and Governance) proqramı olan «Birlikdə SIFIRA doğru və daha irəli» vasitəsilə dayanıqlı inkişaf, risklərin qarşısının alınması və ətraf mühit fəaliyyətinin davamlı təkmilləşdirilməsi məqsədilə bütün dəyər zənciri üzrə ambisiyalı hədəflər müəyyən edir.

## BİZİM ÖHDƏLİYİMİZ

Ətraf Mühit Siyasətinin məqsədi Carlsberg-in ESG proqramı olan «Birlikdə SIFIRA Doğru və daha irəli» proqramında təsvir edildiyi kimi 2030 və 2040-cı illərə qədər qoyulmuş ambisiyalı hədəflər ilə dəstəklənərək ətraf mühit üçün potensial risklərin qarşısını almaq və onlara nəzarət etməkdir.

Carlsberg Group ESG-yə yanaşmamızı davamlı olaraq qiymətləndirməyə və təkmilləşdirməyə, eləcə də bu yanaşmanı daima yeniləməyə sadiqdir.



# TƏLƏBLƏR

## 1.ÖHDƏLİKLƏR

**1.1** Həmişə mövcud qanun və qaydalara riayət etmək.

**1.2.** Davamlı olaraq ətraf mühit standartlarımızı təkmilləşdirmək.

**1.3.** Strategiyamız, hədəflərimiz və onlarla əlaqəli məqsədlərimizlə bağlı ünsiyyət qurmaq və onları həyata keçirmək.

**1.4.** Ətraf mühitdə qəzaları sıfıra endirmək və ətraf mühitə təsirimizi azaltmaq məqsədilə davamlı şəkildə risklərin azaldılması üzərində işləmək.

**1.5.** Sertifikatlaşdırılmış ətraf mühit üzrə idarəetmə sistemimizi qorumaq.

**1.6.** Öhdəliklərimizi yerinə yetirmək üçün zəruri olan təşkilatı qabiliyyətlərimizi yaradıb qorumaq və resursları təmin etmək.

**1.7.** Hədəflər və əsas fəaliyyət göstəriciləri müəyyən edərək ətraf mühit fəaliyyətini təkmilləşdirmək, fəaliyyətə nəzarət etmək və ətrafla mühitlə bağlı aspektlər və məlumatlar üçün güclü idarəetmə nəzarəti tətbiq etmək.

**1.8.** Səhmdarlarla şəffaf və effektiv şəkildə ünsiyyət qurmaq..

## 2. ISO SERTİFİKATLAŞDIRMASI VƏ İNTEQRASİYA OLUNMUŞ İDARƏETMƏ SİSTEMİ

**2.1.** Carlsberg Group-un istehsal və təchizat zəncirinin idarə edilməsi ISO 14001-ə uyğun olaraq sertifikatlaşdırılmalıdır və müəyyən edilmiş ətraf mühit idarəetmə təcrübələrinə riayət etməlidir.

## 3.ENERJİ

**3.1.** Carlsberg Group bütün enerji mənbələrindən mümkün qədər səmərəli şəkildə istifadə etməyə və istixana qazlarının emissiyalarını, eləcə də səs, qoxu və digər narahatlıqlar ilə bağlı emissiyaları azaltmağa çalışır.

**3.2.** Carlsberg Group mütəmadi olaraq karbon qazı izinin azaldılması məqsədilə əməliyyatlarımızda bərpa olunan enerjinin tətbiqi imkanlarını qiymərləndirir və enerjidən istifadəmizi tədricən bərpa olunan mənbələrə keçirməyə çalışır.

**3.3.** Carlsberg Group innovasiyanı təşviq etmək, enerji səmərəliliyi proqramlarını tətbiq etmək, bərpa olunan enerjidən istifadəni artırmaq və təchizat zənciri boyu ətraf mühitə təsiri azaltmaq üçün təchizatçılar və müştərilər ilə əməkdaşlıq edir.

## 4.İQLİM DƏYİŞİKLİYİ VƏ DAYANIQLILIQ

**4.1.** Carlsberg Group iqlim dəyişikliyinin təsirlərini azaltmaq və dəyər zənciri üzrə iqlim dayanıqlılığını artırmaq üçün təşəbbüs göstərməyə çalışır.

**4.2.** Carlsberg Group Elmə Əsaslanan Hədəflər təşəbbüsünün çərçivəsinə uyğun olaraq müəyyən edilmiş hədəflərlə əlaqəli şəkildə davamlı olaraq dəyər zənciri üzrə emissiyaları azaltmaq üzərində işləyir.

**4.3.** Carlsberg Group Elmə Əsaslanan Hədəflər təşəbbüsünün tələblərinə uyğun olaraq təkmilləşmələri təşviq etmək və öhdəlikləri müəyyən etmək üçün təchizatçılar və xidmət təminatçıları ilə əməkdaşlıq edir.

## 5.SU VƏ ÇİRKAB SULAR

**5.1.** Carlsberg Group suyun səmərəliliyi, çıxarılması, istehlakı və axıdılması kimi mövzulara diqqət yetirərək fəaliyyət göstərdiyimiz icmalarda suyun davamlı istifadəsinə nail olmağa çalışır. Carlsberg suyun çıxarılması, istifadəsi və axıdılmasına mütəmadi olaraq nəzarət edir və davamlı şəkildə tətbiq olunan ən yaxşı təcrübələri təkmilləşdirmək və tətbiq etmək üçün çalışır.

**5.2.** Carlsberg Group fəaliyyət göstərdiyimiz bütün ərazilərdə suyun uzun müddət mövcud olmağını təmin etmək üçün "su riski olan ərazilərdə (su ehtiyatları üzərində yüksək təzyiq olan ərazilər də daxil olmaqla)" və "su qıtlığı" olan ərazilərdə mütəmadi olaraq təsirimizi qiymətləndirir və müvafiq tədbirlər görür.

# TƏLƏBLƏR (DAVAMI)

**5.3.** Su ehtiyatları üzərində yüksək təzyiq olan ərazilərdə Carlsberg Group yerli icmalarla əməkdaşlıq edərək onların su hövzələrinin idarə olunmasına ən yaxşı şəkildə necə dəstək ola biləcəyimizi başa düşmək məqsədilə suyun bərpası layihələrini həyata keçirməklə pivə zavodlarımızda istehlak olunan su ehtiyatını bərpa edəcəkdir.

**5.4.** Carlsberg Group fəaliyyətimiz nəticəsində yaranan çirkab suların qanunvericiliyin tələblərinə uyğun olaraq təmizlənməsini təmin edir. Bu, ya ərazidə olan çirkab su təmizləmə qurğusuda, ya da ərazidən kənarda olan bələdiyyə / sənaye çirkab su təmizləmə qurğusunda yerinə yetirilir.

**5.5.** Carlsberg Group təchizatçıları su ehtiyatlarını qorumağa təşviq edir.

## 6. TULLANTILAR VƏ YAN MƏHSULLAR

**6.1.** Carlsberg Group resursların qorunması və torpaq, su və havanın çirklənməsinin qarşısını almaq üçün tullantıların meydana gəlməsini aradan qaldırmaq və ya azaltmaq / minimuma endirmək üçün çalışır.

**6.2.** Carlsberg Group pivəbişirmənin yan məhsullarını yem materialı, torpaq təkmilləşdiricisi və ya bərpa olunan enerji mənbəsi kimi, yaxud digər istənilən innovativ həllər kimi istifadə etməyə çalışır.

.

**6.3.** Carlsberg Group torpaqların nəzarətsiz doldurulmasının və ya ərazidə / ərazidən kənarda tullantıların nəzarətsiz idarə edilməsinin hər hansı formasının qarşısını almağı hədəfləyir.

**6.4.** Carlsberg Group təkrar emal edilə bilməyən tullantıların azaldılmasına və dövriyyənin artırılmasına sadiqdir.

## 7. QABLAŞDIRMA

**7.1.** Carlsberg Group qablaşdırma materiallarının istehlakını azaltmaq və təkrar istifadə oluna bilən qablaşdırmanın payını artırmaq üçün daim tərəfdaşları ilə işləyir. Carlsberg Group ətraf mühitə təsirləri minimuma endirmək üçün davamlı şəkildə yalnız təkrar emal oluna bilən qablaşdırmanın seçilməsinə çalışır.

**7.2.** Carlsberg Group ətraf mühitə daha az təsir edən qablaşdırma materiallarının məsuliyyətlə əldə edilməsini təmin etmək üçün təchizatçılar ilə əməkdaşlıq edir.

**7.3.** Yeni qablaşdırma növləri bazara təqdim edilməzdən əvvəl, onlar həyat dövrünün qiymətləndirilməsindən (LCA) və ya oxşar ekoloji qiymətləndirmədən keçməlidirlər.

**7.4.** Carlsberg Group istehlakçılara yönəlmiş əsas qablaşdırmalar üçün yeni, ekoloji cəhətdən təmiz depozit geri qaytarma sistemlərini təkmilləşdirmək və tətbiq etməkdə fəal rol oymağa sadiqdir.

## 8. XAMMAL

**8.1.** Carlsberg Group bərpaedici təcrübələri tətbiq etmək üçün və Carlsberg-ə çatdırılan xammalın davamlı şəkildə əldə edilməsini, müvafiq sertifikatlara və ətraf mühitə təsiri azaltmaq üçün tədbirlərə uyğun olmasını təmin etmək məqsədilə davamlı şəkildə təchizatçılar ilə əməkdaşlıq edir. Carlsberg Group dəyər zəncirimiz boyu biomüxtəlifliyə və ekosistemlərə əhəmiyyətli faktiki və ya potensial təsirləri olan məhsulların, komponentlərin, yaxud xammalların izlənmə qabiliyyətinin artırılmasını dəstəkləyir. Xammallar içərisində Carlsberg Group diqqətini əsasən taxıl cücərtisi, arpa, buğda, şərbət, şəkər, düyü, qarğıdalı və mayaotuna yönəldir.

**8.2.** Carlsberg Group biomüxtəlifliyə və ekosistemlərə təsirlərin qiymətləndirilməsində faktlara əsaslanan yanaşma tətbiq edir və təsirin qiymətləndirilməsinə iqlim dəyişikliyi, torpaq istifadəsində dəyişiklik, şirin sudan istifadə və çirklənmə kimi bir sıra mövzuları daxil edir. Bu, xüsusilə, xammallar və qablaşdırma sahəsinə uyğundur, çünki su yollarına, torpağa və biomüxtəlifliyə potensial təsirlər mövcuddur.

# TƏLƏBLƏR (DAVAMI)

**8.3.** Carlsberg Group 31 dekabr 2025-ci ilə qədər meşələrin qırılması ilə bağlı əsas xammalları üzrə meşələrin qırılmasının qarşısını almağı öhdəsinə götürür.

## 9.SƏRMAYƏLƏR VƏ SATINALMALAR

**9.1.** Carlsberg Group bu Siyasətin əhatə etdiyi bütün sahələr daxil olmaqla, ətraf mühitə əhəmiyyətli təsir göstərən işlərin planlaşdırılması, hesablanması və həyata keçirilməsi zamanı sərmayələrin və satınalmaların ekoloji aspektlərinə üstünlük verir.

**9.2.** Carlsberg Group enerji baxımından səmərəli avadanlıqların alınmasına və enerji / ekoloji göstəricilər üçün təkmilləşdirilmiş dizayna üstünlük verir.

## 10.MARAQLI TƏRƏFLƏR

**10.1.** Carlsberg Group ekoloji məsələlər üzrə maraqlı tərəflərimizlə açıq və qərəzsiz dialoq tərəfdarıdır və biz vaxtaşırı xarici və daxili maraqlı tərəflərlə yanaşmamızı əhəmiyyətliliyin qiymətləndirilməsi yolu ilə əlaqələndiririk.

**10.2.** Carlsberg Group fəaliyyət göstərdiyimiz icmalarla əməkdaşlıq edərək dayanıqlılıq təşəbbüslərinin təşviqinə dəstək verir. Bunun üçün biz ekoloji prioritetlərimizə uyğun olaraq təchizatçılar, sənaye üzrə həmkarlar, qeyri-hökumət təşkilatları və dövlət qurumları ilə tərəfdaşlıqlar qururuq.

## QAYDA POZUNTUSU NECƏ BİLDİRİLMƏLİDİR

Bütün işçilərdən öz vəzifələrinə uyğun olaraq ekoloji tələblərə riayət etmələri gözlənilir. Ətraf mühitə uyğunluq və ya potensial pozuntular ilə bağlı hər hansı məsələlər daha geniş uyğunluq və idarəetmə siyasətinə uyğun olaraq, Carlsberg Group-un mövcud daxili hesabat kanalları vasitəsilə bildirilə bilər. Məsələlər barədə bizə məlumat verildikdə, onları bildirənlərin hüquqlarını qoruyacağıq və yaxşı niyyətlə məsələ qaldıran və ya istintaqa kömək edən hər kəsə qarşı hər hansı cəza və ya intiqam tədbirinə yol verməyəcəyik.

Speak Up Siyasətimiz işlərin necə araşdırıldığı barədə daha ətraflı məlumatı ehtiva edir.



# VƏZİFƏLƏR VƏ MƏSULİYYƏTLƏR

| VƏZİFƏ / AD | MƏSULİYYƏTLƏR |
|---|---|
| **İcraiyyə Komitəsi Siyasət Sponsoru (Group-un Baş İcraçı Direktoru)** | • Qlobal Siyasət üzrə Sponsor strateji nəzarəti təmin edən yüksək vəzifəli rəhbərdir, zəruri resursların ayrılmasını təmin edir və siyasəti icraçı rəhbərlik səviyyəsində təşviq edir.<br>• Siyasət çərçivəsinin yekun təsdiqinə görə məsuliyyət daşıyır. |
| **Siyasət Sahibi Əməliyyat fəaliyyəti üzrə İcraçı Vitse-Prezident)** | • Qlobal Siyasət Sahibi siyasətin bütün qüvvədə olduğu müddətə cavabdehdir, onun təşkilatın strategiyasına, uyğunluq tələblərinə və əməliyyat ehtiyaclarına uyğunluğunu təmin edir.<br>• İnteqrasiya Olunmuş Təchizat Zəncirinə daxil edilməsini təmin edir və ekoloji riskləri aradan qaldırmaq üçün İnteqrasiya Olunmuş Təchizat Zənciri daxilində proseslər və idarəetməni müəyyən edir, lazım olduqda İcraiyyə Komitəsinə yeniliklər barədə məlumat verir.<br>• İnteqrasiya Olunmuş Təchizat Zəncirinin dayanıqlılıq strategiyasını müəyyən etmək, ekoloji hədəflər və fəaliyyət göstəricilərini təsis etmək üçün məsuliyyət daşıyır. ISO 14001 standartına uyğun olaraq "Group"un ekoloji idarəetmə sisteminə nəzarət edir. Bütün istisna və fərqliliklərin təsdiqini həyata keçirir və onlara nəzarət edir. |
| **Group üzrə Əməliyyat fəaliyyətinin Dayanıqlılığı** | • Kommunal xidmətlər və ətraf mühit proqramlarını hazırlamaq, fəaliyyət göstəriciləri və hədəfləri hazırlamaq, eləcə də ekoloji standartlar və qaydalara əməl etmək, Carlsberg-in öhdəliklərini yerinə yetirmək üçün resurları təmin etmək məsuliyyəti daşıyır. |
| **Group-un dayanıqlılığı və Ətraf Mühit, Sosial və İdarəetmə Məsələləri (ESG)** | • Carlsberg-in Ətraf Mühit, Sosial və İdarəetmə Strategiyasına Ekoloji Siyasət tətbiq etmək üçün məsuliyyət daşıyır. Xarici maraqlı tərəflərin Siyasi səylər barədə müvafiq və düzgün şəkildə məlumatlandırılmasını təmin etmək üçün məsuliyyət daşıyır. |
| **Region üzrə İcraçı Vitse-Prezidentlər** | • Bu Siyasətin və əlaqəli standartların müvafiq təşkilatlarında tam uyğun şəkildə tətbiqini, eləcə də bütün müvafiq işçilərə bu Siyasət və onun tələbləri barədə məlumat verildiyini və onların bu Siyasətə riayət etdiklərini təmin etmək üçün məsuliyyət daşıyırlar. İş məqsədilə müvafiq risk qiymətləndirilməsinin aparılmasına görə məsuldur. Bu Siyasətə riayət etmək üçün müvafiq resursların təmin edilməsinə görə məsuldur. |
| **Baş Direktorlar / regional və yerli idarəetmə** | • Öz müvafiq bölmələri və bazarları daxilində bütün bölmələrdə və fəaliyyətlərdə Siyasətin və onunla əlaqəli tələblərin icra edilməsinə görə məsuldur. |
| **Pivə zavodlarının direktorları** | • Öz müvafiq bölmələri və bazarları daxilində istehsal və logistika sahələrində Siyasətin və onunla əlaqəli tələblərin icra edilməsinə görə, başqalarına nümunə olaraq rəhbərlik etməyə görə, eləcə də Siyasətin kifayət qədər başa düşülməsi və ona riayət edilməsinə görə məsuldur. |
| **Carlsberg-in bütün bölmələri üzrə menecelər / direktorlar** | • Başqalarına nümunə olaraq rəhbərlik etməyə görə və müvafiq bölmələri daxilində Siyasətin kifayət qədər başa düşülməsi və ona uyğunluğu təmin etməyə görə məsuldur. |
| **Ziyarətçilər də daxil olmaqla, Carlsberg Group-un bütün qurumlarının rəhbərliyi, işçiləri və podratçıları** | • Siyasətə riayət etmək və hər hansı müşahidə edilən qəza və hadisənin bildirilməsinə görə məsuldur. |

## LÜĞƏT

**IMS** (Integrated Management System)

İnteqrasiya Olunmuş İdarəetmə Sistemi. ISO 9001, ISO 14001 və ISO 45001 standartları daxildir.

**ESG** (Environmental, social and governance)

Ətraf mühit, sosial və idarəetmə.

**KPI** (Key performance indicator)

Əsas fəaliyyət göstəricisi.

## YAYINMALAR

Hər hansı bir istisna halı olmadıqda, yaxud Siyasət açıq-aydın tətbiq edilə bilmədikdə bu Siyasət ilə bağlı heç bir istisna təmin edilə bilməz. İstisnalar ilə bağlı bütün sorğular Siyasət sahibinə yazılı şəkildə təqdim edilməlidir. Siyasət sahibi hər bir sorğunu fərdi olacaq qiymətləndirməli və qərar verməlidir. Verilmiş istisnalar müvafiq şəkildə qeyd olunmalı və sənədləşdirilməlidir.

Bu Siyasət ilə milli qanunlar və ya digər tətbiq edilən standartlar arasında hər hansı bir uyğunsuzluq olsa, daha sərt tələblər tətbiq ediləcək. Bu Siyasətin müddəaları ilə milli qanunvericilik və ya digər tətbiq olunan standartlar arasında uyğunsuzluqlar Group şirkətləri ilə birlikdə Carlsberg Korporativ Ofisi tərəfindən qiymətləndirilməlidir. Bu yaxınlarda Carlsberg Group-a qoşulan şirkətlər inteqrasiya dövrü ərzində Siyasətin müddəalarından azad oluna bilərlər.

## NECƏ NƏZARƏT EDİRİK?

Biz bu Ətraf Mühit Siyasətinə riayət edilməsinə fəaliyyəti izləməyə, uyğunluğu dəstəkləməyə və davamlı təkmilləşməni təşviq etməyə kömək edən mövcud daxili proseslər vasitəsilə nəzarət edirik. Ətraf mühit öhdəliklərimizə və dəyişən tənzimləyici tələblərə uyğunluğu təmin etmək üçün nəzarət mexanizmləri mövcuddur və müvafiq bölmələr və iş səviyyələti üzrə müntəzəm olaraq həyata keçirilir. Bu siyasətə riayət etməmək intizam tədbirlərinə səbəb ola bilər.

## SİYASƏTƏ YENİDƏN BAXILMASI

Bu siyasətə zəruri hallarda və ən azı ildə bir dəfə yenidən baxılacaq və yenilənəcək. İcra Komitəsinin müvafiq siyasət sponsorunun təsdiqi ilə istənilən vaxt dəyişiklik edilə bilər. Əgər bu siyasətin ingilis dilindəki versiyası ilə tərcümə edilmiş versiyası arasında hər hansı uyğunsuzluq yaranarsa, ingilis dilindəki versiya üstünlük təşkil edəcək. Yenilənməyə görə məsuliyyət Siyasətə aiddir.

## ƏLAQƏLİ SİYASƏTLƏR VƏ TƏLİMATLAR

- Təchizatçı və Lisenziya Sahibləri üçün Davranış Kodeksi
- Carlsberg-in Əməliyyat Təlimatları
- Sağlamlıq və Təhlükəsizlik Siyasəti
- Əmlak itkisinin qarşısını almaq üzrə standartlar (cəmi 21)
- Sığorta Təlimatı
- Böhran İdarəetməsi Siyasəti
- Ticarət Sanksiyalarını Yoxlama Siyasətinə Əlavə 1 - Ölkələrin Siyahısı
- Ticarət Sanksiyaları Məlumatı və Yoxlama Nəticələri Cədvəli



## ƏLAQƏ

Daha ətraflı məlumat üçün, Group-un İnteqrasiya Olunmuş Təchizat Zənciri Dayanıqlılığı şöbəsi ilə əlaqə saxlayın.

**Versiya: 1**

Qüvvəyə minmə tarixi: 1 oktyabr 2025-ci il

Növbəti baxış tarixi: 1 oktyabr 2026-cı il

Siyasət Sahibi: Torsten Steenholt - İnteqrasiya Olunmuş Təchizat Zənciri üzrə İcraçı Vitse-Prezident

Təsdiq edən: Yakob Aarup Andersen- Group-un Baş İcraçı Direktoru

Carlsberg Breweries A/S

J.C. Jacobsens Gade 1

1799 Kopenhagen V

Danimarka